Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

**Ölkəmizdə səhiyyə sahəsində aparılan genişmiqyaslı islahatlar vətəndaşların sağlamlığı, sağlam uzun ömürlülük, gələcək nəslin sağlam böyüməsini şərtləndirir. Son illərdə müalicəsi icbari tibbi sığorta paketinə daxil edilən xəstəliklərin sayının artması da buna sübutdur. Məsələn, onkoloji xəstəliyə tutulmuş şəxslərin müalicəsinin və reabilitasiyasının həyata keçirilməsi, dərman preparatlarına olan tələbatın ödənilməsi və maddi-texniki bazasının gücləndirilməsi məqsədilə növbəti ildə dövlət büdcəsindən bu sahəyə 65,6 milyon manat vəsait yönəldiləcək.**

Bu məsələ Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin ötən iclasında müzakirə olunan "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsində öz əksini tapıb. Bildirilib ki, Milli Onkologiya Mərkəzi üçün 64,1 milyon manat və Azərbaycan Tibb Universitetinin Onkoloji Klinikası üçün 1,5 milyon manat olmaqla, cəmi 65,6 milyon manat vəsait yönəldiləcəkdir ki, bu da 2025-ci illə müqayisədə 5,2 milyon manat və ya 8,6 faiz çoxdur. Növbəti il üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə isə ümumilikdə 274,5 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Həmin vəsaitdən ümumi təyinatlı və xüsusiləşdirilmiş xəstəxanaların, tibb mərkəzlərinin saxlanılması, habelə xüsusiləşdirilmiş tibbi xidmətin göstərilməsinə 50,4 milyon manat, bərpa-müalicə sanatoriyalarının fəaliyyətinin təmin edilməsinə 9,4 milyon manat, qanköçürmə üzrə tibbi xidmətlərin göstərilməsinə 3,0 milyon manat, səhiyyə sahəsində tədqiqat fəaliyyəti üzrə işləri həyata keçirən təşkilatların saxlanılması üçün 2,7 milyon manat, digər xərclər üçün (məhkəmə-tibbi, tibbi kriminalistik, tibbi bioloji, məhkəmə-kimyəvi ekspertizalarının və s.) 157,7 milyon manat və sanitar-epidemioloji vəziyyətə nəzarətin təmin edilməsi, infeksiyaya yoluxmuş və onlarla təmasda olan şəxslərin monitorinqinin aparılması məqsədilə sanitar-epidemioloji tədbirlər üçün 51,3 milyon manat vəsait yönəldiləcəkdir.

Qeyd etməliyik ki, onkoloji xəstəliklərin icbari tibbi sığorta zərfinə daxil edilməsinin zəruriliyi indiyədək çox səsləndirilib, parlamentdə müzakirələr zamanı bu məsələ gündəmə gətirilib. Növbəti ildə onkoloji xəstəliyə tutulmuş şəxslərin müalicəsinin və reabilitasiyasının həyata keçirilməsi, dərman preparatlarına olan tələbatın ödənilməsi və bu sahənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə dövlət büdcəsindən 65,6 milyon manat vəsaitin yönəldiləcəyi xəbəri xəstəlikdən əziyyət çəkənlərin vəziyyətini yaxşılaşdıracaq. Səhiyyə sistemində həyata keçirilən bir sıra digər yeniliklər də vətəndaş məmnunluğuna hesablanıb. TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov 27-ci Azərbaycan Beynəlxalq Tibb İnnovasiyaları Sərgisi - "Medinex"in rəsmi açılış mərasimində bildirmişdi ki, elektron növbə sistemi xidməti ilə bağlı artıq paytaxt və Abşeron ərazisində yerləşən 17 tibb müəssisəsində 33 növbə terminalı və 99 monitor, regionlarda isə 28 tibb müəssisəsində 51 növbə terminalı və 133 monitor quraşdırılıb. Məlumdur ki, xəstəxanalara müraciətlərin sayının artması ilə əlaqədar növbələr yaranır. Problemin aradan qaldırılması üçün müntəzəm işlər aparılır. Bu məqsədlə tibb müəssisələrinə




# Təbliğat və maarifləndirmə vacibdir

## Minlərlə insan orqan donorluğuna möhtacdır

növbə terminalları quraşdırılıb. İlin sonuna qədər bu sistemin ölkə üzrə əksər tibb müəssisələrində istifadəyə verilməsi planlaşdırılır. Bundan başqa, son 5 il ərzində 95 tibb müəssisəsində Laboratoriya İdarəetmə Sistemi tətbiq edilmiş, bu müddət ərzində cəmi 110 milyon laborator xidmət, o cümlədən 90 milyon ambulator və 20 milyon stasionar xidmət qeydə alınıb. Vətəndaşlar artıq şəxsi kabinet və "e-TABIB" mobil tətbiqi vasitəsilə laborator nəticələrini onlayn əldə edə bilirlər. V.Qurbanov qeyd edib ki, ölkədə yeni tibb müəssisələri istifadəyə verilib. Tibbi xidmətlərin əlçatanlığının artırılması ilə bağlı müvafiq tapşırıqlar icra olunur. Artıq tibbi xidmətlərin çeşidi də genişlənib. Əvvəllər dövlət tibb müəssisələrində ay ərzində icbari tibbi sığorta çərçivəsində 200-300 müraciət qeydə alınırdısa, indi bu rəqəm 2-3 min civarındadır. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin marketinq və tədbirlər şöbəsinin müdiri Pərvin Salahova isə qeyd edib ki, "e-Təbib" mobil tətbiqi vasitəsilə pasiyentlər həkimi və xidməti bu tətbiq vasitəsilə qiymətləndirə biləcək. Bu tətbiq Agentliyin rəqəmsal səhiyyə sahəsində həyata keçirdiyi ən mühüm layihələrdən biridir və hər il yeni funksiyalarla təkmilləşdirilir. Bu il təqdim edilən daha bir yenilik ondan ibarətdir ki, vətəndaşlar artıq icbari tibbi sığorta çərçivəsində tibbi xidmət aldıqdan sonra həmin xidmətin keyfiyyətini qiymətləndirə biləcəklər. Yeni vətəndaş mobil tətbiq vasitəsilə aldığı xidmətin səviyyəsini, həkimin fəaliyyətini və tibbi müəssisənin işini dəyərləndirə biləcək. P.Salahova qeyd edib ki, bu imkan Agentliyə vətəndaşların fikirlərini daha yaxından öyrənməyə və onların məmnunluğuna əsaslanaraq tibbi xidmətlərin keyfiyyətini artırmaq üçün konkret addımlar atmağa şərait yaradacaq.

Hazırda ölkə səhiyyəsində irəliləyiş əldə edilən sahələrdən biri də orqan köçürmə əməliyyatları ilə bağlıdır. Xatırladaq ki, bir neçə gün əvvəl ölkəmizdə meyitdən ürək transpalntasiyası əməliyyatı uğurla icra olundu. Səhiyyə Nazirliyinin rəsmi "Instagram" hesabında keçirilən canlı yayım zamanı Nazirliyin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədri Yeganə Abbasova açıqlamasında qeyd edib ki, hazırda Mərkəzə ən çox müraciətlər böyrək köçürülməsi və sümük iliyi transplantasiyası ilə bağlı daxil olur. Xroni-

## "Orqan transplantasiyasında etik prinsiplərə əməl olunmalıdır"

ki böyrək çatışmazlığı ilə yaşayan insanlar üçün donor tapılması həyati əhəmiyyət daşıyır. Sümük iliyi transplantasiyası isə daha çox leykemiya, limfoma və aplastik anemiya kimi ağır hematoloji xəstəliklər zamanı həyata keçirilir. Bir çox hallarda xəstənin yeganə sağalma şansı məhz uğurlu transplantasiyadır. Onun sözlərinə görə, hazırda donor gözləyənlərin sayı 1000 nəfərdən çoxdur: "Uyğun donorun tapılması bəzən bir neçə ay, bəzi hallarda isə illər çəkə bilər. Buna görə də cəmiyyətin könüllü donor qeydiyyatına aktiv yanaşması çox vacibdir". Y.Abbasova qeyd edib ki, son illərdə Azərbaycanda orqan donorluğu mövzusuna maraq nəzərəçarpacaq dərəcədə artıb, vətəndaşlar həm qanunvericilik, həm də donor olma prosedurları barədə daha çox məlumat əldə etməyə başlayıblar: "Aparılan maarifləndirici tədbirlər, media layihələri və aidiyyəti qurumların mütəxəssislərinin çıxışları donorluq mövzusu ilə bağlı məlumatlılığın yüksəlməsinə mühüm təsir göstərib. Bu cür məlumatlandırma işi cəmiyyətin məsələyə daha şüurlu və obyektiv yanaşmasına şərait yaradıb. Eyni zamanda, cəmiyyətdə humanizm, paylaşma və sosial dəstək dəyərlərinin güclənməsi də diqqətəlayiqdir. İnsanlar daha çox anlayırlar ki, orqan bağışlamaq bir insanın həyatını xilas etmək və ona ikinci bir şans vermək deməkdir. Bu düşüncə tədricən daha geniş yayılır və qəbul olunur. Nəticə etibarilə, donor olmaq istəyənlərin sayı ildən-ilə artır. Gözlənilir ki, bu müsbət tendensiya gələcək illərdə də davam edəcək və cəmiyyətdə orqan donorluğuna münasibət daha da müsbət şəkildə formalaşacaq". Azərbaycan Respublikasının "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Qanununa əsasən, 18 yaşı tamam olmuş və tam fəaliyyət qabiliyyətinə malik hər bir vətəndaş ölümündən sonra öz orqanlarını bağışlamaq barədə könüllü qərar verə bilər. Bu qərar donor reyestrində qeydiyyata alınarsa və ya yazılı şəkildə rəsmiləşdirilərsə, hüquqi qüvvəyə malik sayılır. Y. Abbasovanın sözlərinə görə, vətəndaş vəfat etdikdə, orqan bağışlanması ilə bağlı onun sağlığında verdiyi qərar ailəsinə yalnız məlumat xarakterində bildirilir və ailədən əlavə razılıq tələb olunmur: "Qanun burada şəxsin öz bədəni üzərində verdiyi iradəni əsas götürür və bu iradə üstün hüquqi statusa malikdir. Yəni vətəndaş sağlığında orqanlarını bağışlamaq barədə qərar veribsə, ailənin etirazı həmin qərarı ləğv etmir".

**Həkim-terapevt Şahvələd Məmmədov "Şərq"ə açıqlamasında səhiyyə sahəsində tətbiq edilən innovasiyaların pasiyentlərin rahatlığı üçün böyük önəm daşıdığını dedi:**

- Elektron resept, elektron növbə, elektron qəbul, analizlərin cavabını vətəndaşın qısa müddətdə onlayn əldə etməsi, bunlar hamısı müsbət yeniliklərdir. Pasiyentlər də, həkimlər də əlavə vaxt itkisindən azad olur, həkimlər daha səmərəli işləyə bilir. Sevindirici xəbərdən biri də ölkəmizdə orqan köçürməsi əməliyyatları ilə bağlı müsbət tendensiyaların qeydə alınmasıdır. Orqan donorluğunu inkişaf etdirmək çox vacibdir. Minlərlə insan orqan donorluğuna möhtacdır. Ən çox da böyrək, ürək çatışmazlığı xəstəliyinə tutulanlar. Məlumdur ki, orqanların götürülməsi yalnız beyin ölümü rəsmi şəkildə təsdiqləndikdən sonra və müvafiq tibbi komissiyanın qərarı ilə həyata keçirilir. Amma bunun üçün vəfat etmiş şəxsin doğmalarının, ailə üzvlərinin razılığı da əsasdır. Bu məsələdə geniş təbliğat işlərinin aparılmasına, insanların buna təşviq edilməsinə böyük ehtiyac var. Ailə üzvləri ilə vaxt itirmədən psixoloji iş aparılmalı, onlara mənəvi dəstək göstərilməlidir. Orqan transplantasiyasında biz etik məsələlərə mütləq əməl etməliyik. Əgər lazımi qaydada maarifləndirmə, təbliğat işləri aparılarsa, inanıram ki, humanizm dəyərlərini yüksək tutan xalqımız sayəsində bu sahədə irəliləyişə nail olacağıq.

**Məlahət Rzayeva**